**YENİ ELEKTRON XİDMƏTİN İSTİFADƏYƏ VERİLMƏSİ BARƏDƏ BİLDİRİŞ**

Hörmətli vergi ödəyiciləri!

Məlum olduğu kimi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 4 sentyabr 2019-cu il tarixli 382 nömrəli Qərarı ilə "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 28 yanvar tarixli 27 nömrəli Qərarı ilə təsdiq edilmiş "Sertifikat xidmətlərinin göstərilməsi, sertifikatın verilməsi və reyestrin aparılması Qaydaları"nda dəyişikliklər edilərək Asan Sertifikat Xidmətləri Mərkəzinə (bundan sonra ASXM) müraciət etmiş şəxslə Mərkəz arasında bağlanılan müqavilənin yazılı formada tərtib edilməsi və sertifikatların kağız daşıyıcında çap edilərək təqdim edilməsi ilə bağlı tələblər aradan qaldırılmış, imza sahibi tərəfindən sertifikatın qüvvədə olma müddəti ərzində yeni sertifikatın alınması üçün Mərkəzə elektron qaydada müraciət etmək imkanının yaradılması üçün hüquqi əsas yaradılmışdır.

Bununla da qüvvədə olan "Şəxsi" yaxud "İş" (Biznes) və ya "Dövlət və bələdiyyə" tipli "Asan imza" sertifikatlarının qüvvədə olma müddəti bitməmiş onların müddətinin uzadılmasını onlayn formada həyata keçirmək imkanının yaradılması nəzərədə tutulmuşdur.

Bütün bu tapşırıqlara uyğun olaraq "Qüvvədə olan "Asan İmza" sertifikatlarının onlayn yenilənməsi üzrə İstifadəçi Təlimatı", "Şəxsi tipli "Asan İmza" sertifikatı əsasında İş (Biznes) və Dövlət və bələdiyyə tipli "Asan İmza" sertifikatlarının onlayn əldə olunması üzrə İstifadəçi təlimatı" hazırlanmışdır.

"Qüvvədə olan "Asan İmza" sertifikatlarının onlayn yenilənməsi üzrə İstifadəçi Təlimatı", "Şəxsi tipli "Asan İmza" sertifikatı əsasında İş (Biznes) və Dövlət və bələdiyyə tipli "Asan İmza" sertifikatlarının onlayn əldə olunması üzrə İstifadəçi təlimatı" ilə sənədin qoşmalarında tanış ola bilərsiniz.

Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

Vergi qanunvericiliyinin tətbiqi və inzibatçılığı ilə bağlı əlavə məlumat almaq üçün Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin rəsmi internet saytına (http://vergi.nakhchivan.az/), Çağrı Mərkəzinə (195-1) və vergi ödəyicilərinə xidmət strukturlarına müraciət edə bilərsiniz.

Qoşma: 2 fayl

***Naxçıvan Muxtar Respublikasının Dövlət Vergi Xidməti***